# İctimai xadim, görkəmli pedaqoq



**Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin 392 saylı fondunda tanınmış ictimai-siyasi xadim, "İkinci kişi gimnaziyası"nın müəllimi Mehdi bəy Hacıbababəyovun şəxsi işi qayğı ilə qorunub saxlanılır. Arxiv sənədlərinə əsasən Mehdi bəy ayrı-ayrı vaxtlarda Bakı şəhərində yerləşən müxtəlif məktəblərdə pedaqoji fəaliyyət göstərmişdir. Yeri gəlmişkən, qeyd edək ki, onun xidməti haqqında Dövlət Tarix Arxivində saxlanılan 9 iyun 1916-cı il tarixli formulyar siyahısında qeyd edilir ki, Mehdi bəy Hacıbababəyov "bəy" rütbəsinə malik olmamışdır. O, 1900-cü il iyunun 5-də Bakıdakı real məktəbinin altı sinfini bitirmişdir. Bakıdakı III Aleksandr adına kişi gimnaziyasının Pedaqoji Şurasında 1901-ci il mayın 23-də təşkil olunmuş imtahandan müvəffəqiyyətlə keçərək ibtidai məktəb müəllimi adına layiq görülmüş və bu haqda müvafiq şəhadətnamə əldə etmişdir.**

Mehdi bəy Bakı-Dağıstan Xalq Məktəbləri Direksiyası müdirinin 1 sentyabr 1901-ci il tarixli sərəncamı ilə I rus-tatar məktəbində müəllim əvəzləyicisi vəzifəsinə təyin edilmişdir. Daha sonra Mehdi bəyə I rus-tatar məktəbində müəllim işləməyə icazə verilmişdir. Onun pedaqoji fəaliyyəti Bakı-Dağıstan Xalq Məktəbləri Direksiyasının rəhbərliyi tərəfindən bəyənilir. Bir neçə müddətdən sonra Qafqaz Tədris Dairəsi Qəyyumu tərəfindən Bakıda altı sinifli səhər məktəbində müəllim köməkçisi təyin edilmişdir.

Mehdi bəy ikinci dəfə Rəhilə xanım Terequlova ilə ailə həyatı qurmuşdur. Mehdi bəyin birinci nikahdan 1905-ci il fevralın 2-də Əlibəy, ikinci nigahdan isə 1910-cu il fevralın 14-də İbrahim adlı oğlu dünyaya gəlmişdir. Mehdi bəyin həyat yoldaşı və uşaqları müsəlman məzhəbinə mənsub olmuş və onun yanında yaşamışdılar.

Pedaqoji fəaliyyətlə yanaşı fəal ictimai-siyasi xadim olaraq ölkənin ictimai-siyasi həyatında da yaxından iştirak etmişdir. Mehdi bəy Hacıbababəyov Azərbaycanın istiqlal mübarizəsində də fəal iştirak etmişdir. 1918-ci il mayın 28-də Tiflis şəhərində tərkibi ümumilikdə - Milli Şura sədrinin müavini Həsən bəy Ağayev, katib Mustafa Mahmudov, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyov, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybətqulu Məhəmmədbəyov, Mehdi bəy Hacınski, Əli Əsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbərağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məhəmməd Yusif Cəfərov, Xudadat bəy Məlikaslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firidun bəy Köçərli, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlikaslanov və Hacı Mirzə Axundzadədən ibarət olan 26 nəfərlik heyətin tərkibində olub. 1918-ci il mayın 28-də Tiflis şəhərində Milli Şura tərəfindən Azərbaycanın müstəqil dövlət elan edilməsi haqqında qərar qəbul edilmişdir. Siyahıdan göründüyü kimi, Azərbaycanın müstəqilliyi haqqında qərarı qəbul etmiş həmin Milli Şuradakı 26 nəfərdən biri də Mehdi bəy Hacıbababəyov olmuşdur.

Xatırladım ki, Mehdi bəy Hacıbababəyov 1901-ci ildən 1-ci Bakı rus-tatar məktəbində axşam kurslarında dərs demiş, "Nicat" xeyriyyə cəmiyyətinin katiblərindən biri olmuş, "Nicat" cəmiyyətinin teatr bölməsinə başçılıq etmiş, eyni zamanda "Nicat" cəmiyyətinin 1-ci şəhər rus-tatar məktəbinin direktoru seçilmişdir. Mehdi bəy Hacıbababəyov həmçinin Müəssislər Məclisinin çağırılması üzrə mərkəzi komissiyanın üzvü olmuşdur. Mehdi bəy Hacıbababəyov Azərbaycan Milli Şurasının "Azərbaycan Məclisi-Məbusanının təsis edilməsi haqqında qanun"una (1918, 19 noyabr) əsasən Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin tərkibinə daxil edilmişdir. Mehdi bəy Hacıbababəyov Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində "Müsavat" və bitərəflər fraksiyasını təmsil etmişdir.

Mehdi bəy Hacıbababəyov Azərbaycan Xalq Cümhuriyyəti dövründə ictimai-siyasi fəaliyyətlə yanaşı pedaqoji fəaliyyətini də davam etdirmişdir. Həmin illərdə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin təhsil Naziri olmuş Rəşid bəy Kaplanovun 7 sentyabr 1919-cu il tarixli əmrinə uyğun olaraq Bakı üçüncü ali-ibtidai məktəbinin müəllimi Mehdi bəy Hacıbababəyov Bakı 2-ci kişi gimnaziyasının milliləşdirilmiş sinfinə müəllim keçirilmiş və həmçinin ona müvəqqəti olaraq gimnaziyanın müfəttişi vəzifəsinin icra edilməsi tapşırılmışdır.

Mehdi bəy Hacıbababəyov Cümhuriyyət dövründə (1918-1920-ci illər) müəllimlərin keçirilmiş qurultaylarında iştirak etmişdir. Məlum olduğu kimi, həmin qurultayda respublikamızda xalq maarifi və təhsilinin inkişafına, ölkədə savadsızlığın aradan qaldırılmasına və məktəb-təhsil işinin geniş yayılmasına yönəlmiş əhəmiyyətli qərarlar qəbul edilmiş və onlardan bəzilərini həyata keçirmək mümkün olmuş, bəzilərini isə müstəqil dövlət Azərbaycan Xalq Cümhuriyyətinə Rusiyanın silahlı təcavüzü ilə əlaqədar həyata keçirmək mümkün olmamışdır. Həmin qərarların bir çoxunun həyata keçirilməsi sonrakı dövrlərdə icra edilmişdir.

Öz dövrünün tanınmış aktiv ictimai-siyasi xadimi və pedaqoqu - Mehdi bəy Hacıbababəyovun xalqımız qarşısındakı xidmətləri unudulmur və bu gün də böyük hörmət və ehtiramla yad edilir.

**Rafiq SƏFƏROV,**
**Azərbaycan Respublikası**
**Milli Arxiv İdarəsinin**
**Baş məsləhətçisi.**

Respublika .- 2025.- 5 fevral (№25).-